Tarix və onun problemləri, №2 2010

YAŞAR RƏHIMOV
*AMEA Naxçıvan Bölməsi*

# XIX ƏSRDƏ NAXÇIVANIN SOSİAL İNKİŞAFI
*(rus mənbələri əsasında)*

Naxçıvan regionunun sosial həyat tərzində baş vermiş kəmiyyət və keyfiyyət dəyişiklərini izləmək baxımından da XIX əsr rus mənbələri mühüm elmi əhəmiyyət kəsb edirlər. Tarixdən məlum olduğu kimi, İran hakimiyyəti dövründə (1797-1828) Naxçıvan bölgəsi Cənubi Azərbaycanın tərkibinə daxil edilmişdi. XIX əsrin əvvəllərində bölgənin idarə edilməsindən bəhs edən rus məmuru V.Qriqoryev yazırdı ki, başqa xanlıqlarda olduğu kimi Naxçıvan xanlığında da ilkin ödənci kim daha böyük məbləğdə ödəyirdisə, xanlıq da ona verilirdi (1, s.51). Naxçıvan əlyazma sənədlərində yazılırdı ki, xanlığın idarə edilməsi üçün feodallardan biri şah tərəfindən təyin edilirdi və əsas hakim hesab olunurdu, digəri isə tayfaların rəisi və kəngərli tayfasının vəkili hesab edilirdi (3, s.10, 9, s.82). XIX yüzilliyin əvvəllərində Naxçıvan xanlığı şahzadə Abbas Mirzə tərəfindən Naxçıvan və Ordubad dairələrinə bölünmüşdü. Naxçıvan dairəsinə Naxçıvan mahalı, Əlincə, Xok və Dərələyəz mahalları daxil edilmişdi. Ordubad dairəsi isə Ordubad, Əylis, Dəstə, Cənnənab və Biləv mahallarından ibarət idi. Lakin bu dövr rus müəlliflərinin əsərlərində bölgənin mahallara bölgüsündə müəyyən fərqlər olduğunu müşahidə edirik. Xüsusilə Naxçıvan dairəsində mahallar və onların adları haqqında müxtəlif fikirlər verilir. Həm «Naxçıvan əyalətinin statistik təsviri» kitabında (1, s.64), həm «Qafqaz arxasındakı mülklər» toplusunun IV cildində (5, s.328) və digər rusdilli mənbələrdə Naxçıvan dairəsinin dörd mahaldan-Naxçıvan, Əlincə, Xok və Dərələyəz mahallarından ibarət olduğu göstərilir. Həmin mənbələrdən fərqli olaraq digər rus məmuru İ.Şopen yuxarıda göstərilən mahallarla yanaşı olaraq, Məvazixatun mahalının da adını çəkir. Qafqazşünas R.N.İvanov isə bu dövrdə Naxçıvan dairəsində daha bir mahalın-Yaycı mahalının da olduğunu və sonralar Məvazixatun və Yaycı mahallarının Dərələyəz sahəsinə verildiyini təsdiqləyir (2, s.155). Göründüyü kimi, rus mənbələrində verilən fikirlərə əsasən bəhs edilən dövrdə Naxçıvan dairəsinin altı mahaldan- Naxçıvan, Xok, Əlincə, Dərələyəz, Məvazixatun və Yaycı mahallarından ibarət olduğunu söyləmək olar.

XIX əsrin I yarısında Naxçıvan şəhəri inzibati cəhətdən dörd məhəlləyə bölünmüşdü: 1. Əlixan; 2. Şahab; 3. Qurdlar; 4. Sarbanlar. İ.Şopen sonralar şəhərdə daha yeni məhəllələr yarandığından söz açır və 13 məhəllənin adını çəkir. Onun sadaladığı məhəllələr aşağıdakılardır: 1.Sarbanlar; 2.Erməni (bu məhəllə ermənilərin Naxçıvana köçürülməsindən sonra tələsik salınmışdır-Y.R.); 3. Oruc məhlə; 4. Köhnə qala; 5. Xoşulu; 6. Əlixan; 7. Çaparxana; 8. Ziyilyar; 9. Bilici; 10. Şahab; 11. Xoy; 12. Qala; və 13. Uzun divar (7, s.477). Bu dövr rus mənbələri Ordubad şəhərinin beş məhəlləyə bölündüyünü göstərirlər: 1. Ambaras; 2. Kür-tatar; 3. Sər-şəhər; 4. Mingis; 5. Üç tərəngi. İlk dörd məhəllə iki kəndxuda tərəfindən, sonuncu məhəllə isə Hüseyn xan tərəfindən idarə edilirdi (1, s.195).

Bu dövr Naxçıvan tarixinə aid olan rus mənbələrinin əksəriyyətində bölgənin sosial vəziyyəti haqqında olan məlumatlar maraq doğurur. Rus müəlliflərindən V.Qriqoryevin, İ.Şopenin, K.Engelqardın, K.Nikitinin, V. Sısoyevin əsər və məqalələrində, toplu və xülasələrdə, habelə digər müxtəlif nəşrlərdə bu barədə xeyli və zəngin məlumatlar vardır. Bölgədəki şəhərlər, onların sosial inkişafı haqqında bəzi məlumatlar verməyi məqsədəuyğun hesab edirik. Rus mənbələrinin təhlilindən aydın olur кi, XIX yüzilliyin

əvvəllərində Naxçıvan şəhəri özünün əvvəlki gözəlliyini itirmişdi. Birinci və ikinci Rusiya-İran müharibələri dövründə şəhər güclü dağıntıya məruz qalmışdı. XVII əsrin axırlarında Naxçıvanda iki min ev olduğu halda, XIX əsrin əvvəllərində şəhərdə cəmi yeddi yüz ev qalmışdı (1, s.67-68). İ.Şopen Naxçıvan şəhərinin xarici görünüşündən bəhs edərək yazırdı: «Naxçıvanın görünüşü qəddarlıqla zəbt olunmuş şəhəri xatırladır. Şəhərdəki dəhşətli dağıntılar nəticəsində uçurulmuş evlər, ensiz dar küçələr cəhənnəmə bənzəyir. Bəzi yerlərdə palçıqdan hörülmüş divarların qalıqları üzərində quşlar yuva salmışdır» (7, s.478). Rus müəllifi K.Nikitin də bu fikirlərə demək olar ki, tərəfdar olmuşdur. O, «Naxçıvan şəhəri və Naxçıvan qəzası» adlı məqaləsinin 121-ci səhifəsində yazırdı: «Naxçıvanın xarici görünüşü İran şəhərlərini xatırladır. Bütün evlər hündür palçıq divarlarla əhatə olunmuş və birmərtəbəlidir. Küçələr dar, əyri və natəmiz olduğundan şəhər həddindən artıq miskin görünür. Küçələr əyri olduğundan nə qədər gəzsən də, hündür divarlardan başqa heç nə görməzsən. Meşə olmadığından evlərin hamısı palçıqdan düzəldilmiş kərpiclərdən hörülmüşdür. Ümumiyyətlə, burada ağacdan tikilmiş evlərə rast gəlmək mümkün deyil». Naxçıvan şəhəri haqqında rus tarixçisi V.M.Sısoyevin də fikirləri vardır. Şəhər haqqında və onun qədimliyi barədə tarixçi V.Sısoyev belə yazırdı: «Naxçıvan çox qədim şəhərdir. Şəhər X əsrə qədərki dövrdə salınmışdır. Bəlkə də daha qədimdir. Onun sonrakı tarixini qısa sözlə xarakterizə etmək olar. Hər 200-300 ildən bir şəhər özülünə qədər dağıdılırdı. Ancaq hər dəfə yenidən bərpa edilirdi» (6, s.89). Bu dövrdə Naxçıvanda «...adi və memarlıq baxımından sadə, Asiya üslubunda tikilmiş dörd məscid var idi. Şəhər əhalisinə üç hamam xidmət edirdi: Şıxəlibəy, Fəzli və Mirzəəli hamamları».

Bölgənin Naxçıvandan sonra ikinci böyük şəhəri Ordubad şəhəri idi. Rus məmuru V.Qriqoryev yazırdı ki, Naxçıvan şəhərinin sakinləri «Ordubadı Yer üzünün cənnəti» adlandırırdılar və iqlim cəhətdən bu həqiqətən də belədir (1, s.190-191). Ordubad sözünün mənşəyi tam aydınlaşmasa da, 1836-cı ildə Sankt-Peterburqda nəşr edilən «Обозрение Российских владений за Кавказом в статистическом, топогрфическом и финансовом отношенийах» kitabının IV cildində yazılırdı ki, Ordubad və ya Ordubat tərcümədə «düşərgə» və ya «düşərgə yeri» deməkdir (5, s.354). Mənşəcə fransız olan İ.Şopen isə Ordubad şəhərinin Əylis şəhərinin tənəzzülündən sonra nisbi əhəmiyyət daşımağa başladığını və Ordubad haqqında yalnız XII əsrdən başlayaraq məlumatlara rast gəlindiyini nəzərə çatdırır; hələ keçən yüzillikdə (XVIII əsr nəzərdə tutulur -Y.R.) Yuxarı Əylis kəndi əhəmiyyətli bir şəhər olub və o zaman Aşağı Əylislə birləşibmiş. Bu şəhər tez-tez işğalçıların yürüşlərinə məruz qalıb. Ən çox dağıntı XVII əsrdə bu ərazinin Türkiyə-İran müharibələrinin səhnəsinə çevrildiyi zaman baş verib. 1752-ci ildə onun (Ordubadın-Y.R.) əhalisi farslara qarşı çıxmış və uzunmüddətli mühasirəyə tab gətirmişdir. İran ordusuna başçılıq edən Azad xan hücumla şəhəri tutmağa müvəffəq olmuşdur. Bu zaman şəhər müflisləşmiş, 2000 ailədən cəmi 300-ü sağ qalmışdır. İndi bütün bunlara baxmayaraq, yerli əhalinin istehsal qabiliyyəti artır və onlar bu dağıdılmış şəhəri yenidən bərpa etməyə cəhd göstərirlər (7, s.336). Özü şəxsən Ordubad şəhərində olan rus məmuru İ.Şopenin fikrincə, şəhərdə xəstəlik yox dərəcəsindədir, şəhər əhalisinin üzünün təravətliliyi onların sağlamlığının çiçəklənmə vəziyyətində olmasını göstərir (7, s.481). XX yüzilliyin əvvəllərində Ordubad bölgəsində olan rus alimi V.M. Sısoyev bu fikri qüvvətləndirərək yazırdı ki, iqliminə, özünün bağlarının, florasının zənginliyinə və ətraf mənzərələrinə görə bu həqiqətən də belədir. Ordubadı Azərbaycanın, hətta bütün Qafqazın ən gözəl guşələrindən biri hesab etmək olar (6, s.123-125). Hələ ən qədim dövrlərdən Ordubad öz sağlam mühiti ilə seçilən bir ərazi olmuşdur. Baxmayaraq onun yerləşdiyi ərazi buna o qədər də şərait yaratmırdı. Bölgədə olan rus müəlliflərindən biri

yazırdı ki, gil dağlarla əhatə olunan və çılğın Arazın yaxınlığında yerləşən düzən ərazi elə təsəvvür yaradır ki, burada hava olmaz. Naxçıvan və İrəvanla müqayisədə bu ərazidə ölüm faizi o qədər də yüksək deyil; xəstəliklərin sayı azdır və ətraf ərazilərdə bataqlıq yoxdur (7, s.481). Fikrimizcə, bütün bunlar bölgədə xarabalıqların və dağıntıların az olması ilə əlaqədar idi. XIX yüzilliyin 30-cu illərində nəşr edilən mənbələr də Ordubad şəhərinin sağlam iqlimə, şəfaverici təmiz havaya malik olmasını təsdiq edirlər. Həmin mənbələrin birində göstərilirdi ki, 1829-cu ilin iyun ayında Ordubadda yerləşdirilən rus əsgərləri arasında bir nəfər də olsun xəstə olmamışdır. Rusiya-İran müharibəsi zamanı Təbrizdən və başqa yerlərdən buraya gətirilən xəstələr çox tezliklə sağalmışdılar (1, s.191).

Ordubad şəhərinin qədim tarixə malik olduğunu təsdiq edən mənbələrdən əlavə, təbiət abidələri də mövcuddur. Deyilən faktı sübut edən mənbələrdən biri də şəhər ərazisində indiyədək qalan nəhəng çinar ağaclarıdır. Belə çinarlardan biri şəhərin Sərşəhər məhəlləsindədir. Gövdəsinin çevrəsinin uzunluğu 18 metr olan (6, s.135) çinar öz nəhəngliyi ilə baxanları heyran edir. Hələ XIX əsrdə şəhərdə olan rus səyyahları, tarixçiləri və dövlət məmurları da bu çinara biganə qalmamış, öz əsər və məqalələrində ondan bəhs etmişlər. Belə ki, İ.Şopen bu çinarı qədim Baobab adlandırır və yazır ki, onun gövdəsindəki oyuqda 20 adam yerləşə bilər (7, s.335). XX yüzilliyin 20-ci illərində Ordubadda olmuş rus alimi V.Sısoyev də şəhərdəki ağacların içərisində çinarların onun xüsusi diqqətini cəlb etdiyini vurğulayır. Konstontinopol istisna olmaqla, mən heç yerdə bu cinsdən olan gözəl və nəhəng ağaclarla rastlaşmamışam. Ordubadda bütün məlum çinarlardan ən böyükləri vardır. Bu çinarın çevrəsinin uzunluğu adamın sinəsindən olan hissədə 38 futa bərabərdir (6, s.136). Ordubad şəhəri Naxçıvandan fərqli olaraq, inzibati cəhətdən beş məhəlləyə bölünmüşdü: 1. Anbaras; 2. Kürdütal; 3. Mingis; 4. Sərşəhər; 5. Üç düdənçə. Ordubad şəhərinin XIX yüzillikdə xarici görünüşü və yerləşdiyi coğrafi məkan haqqında rus mənbələrində maraqlı məlumatlarla rastlaşırıq. Ordubadı su ilə çoxsaylı bulaqların təhciz etdiyinə şahidlik edən İ.Şopen yazırdı: «Ordubad şəhəri özünün görünüşü və gözəlliyi ilə İrəvan və Naxçıvandan fərqlənirdi; küçələri Asiya şəhərlərində olduğu kimi əyri-üyrü olsa da, palçıq divarları və tikililəri yaşıllıqlara qərq olmuşdur. Hər addımbaşına axan sular sərinlik gətirir, həyətlərin bir çoxunda fontana çevrilirdi» (7, s.481). Bəhs edilən dövrdə Ordubad şəhərində altı məscid və bir o qədər də karvansara olmuşdu.

XIX əsrdə Naxçıvan bölgəsi əhalisinin sosial tərkibi haqqında mənbələrdə o qədər də çox məlumat yoxdur. Buna görə də bəhs olunan dövrdə bölgə əhalisinin sosial tərkibinin tam mənzərəsini yaratmaq xeyli çətinlik törədir. Bu dövr Naxçıvan tarixinə aid olan rus mənbələri bölgədəki sosial xarakterli məsələlərin öyrənilməsinə, sosial inkişafın və dəyişikliklərin dinamikasını izləməyə müəyyən dərəcədə köməklik göstrərirlər. XIX əsr rus müəlliflərinin əksəriyyətinin verdiyi məlumatlardan aydın olur ki, bu dövrdə Naxçıvan şəhərinin əhalisi öz sosial vəziyyətinə görə iki əsas qrupa bölünürdü: 1-ci vergi ödəyənlər, 2-ci vergidən azad olanlar. Bu cəhətdən zəngin faktlara və dolğun məlumatlara əsaslanan İ.Şopenin əsəri xüsusi əhəmiyyət kəsb edir. İ. Şopenin fikrincə, şəhərdə yaşayan ailələrdən ancaq 127-si hər cür vergidən azad edilmişdilər (7, s.479). Bu ailələrin tərkibi maraq doğuran məsələlərdən biridir. Həmin ailələrin tərkibinə diqqət verdikdə aydın olur ki, onlardan 2-si xan, 45-i bəy və sultan, 11-i hərbçi, 2-si ali müsəlman ruhani, 36-sı axund və molla, 22-si seyid, 3-ü dərviş, 6-sı mirzə ailəsi olmuşdur (7, s.479). Şəhər əhalisinin əksəriyyətini sənətkar və tacir ailələri təşkil edirdilər. XIX əsr rus mənbələrində Naxçıvan xanlığında və Rusiya ilə birləşdirilmədən sonra ərazidə ruhani təbəqəsinə mənsub olan adamların sayı haqqında verilən məlumatlar bizə qədər gəlib çatmışdır.

İ.Şopenin məlumatlarını araşdırarkən aydın olur ki, Naxçıvan xanlığında 279 ruhani ailəsi olmuşdur ki, bu ailələrdə də 1370 nəfər yaşamışdır (7, s.187, 645-650). Rus məmuru İ.Şopen həmçinin göstərir ki, XIX yüzilliyin 30-cu illərinin əvvəllərində Naxçıvan bölgəsində 167 axund və molla (780 nəfər), 29 mirzə (187 nəfər), 79 seyid (385 nəfər) və 4 dərviş ailəsi (16 nəfər) yaşayırdı. Həmin vaxt adı gedən bölgədə müsəlman ruhani təbəqəsinə daxil olan hacılar, kərbəlayılar, məşədilər də yaşayırdılar. İ.Şopenin məlumatlarına əsaslanıb demək olar ki, Rusiyaya birləşdirmə dövründə Naxçıvan şəhərində 28, Naxçıvan əyalətində 18, Ordubad şəhərində 36, Ordubad dairəsində 11 hacı (93 nəfər) yaşayırdı. Bu dövrdə göstərilən ərazidə bütövlükdə 212 nəfər kərbəlayı, 339 nəfər məşədi sakin olmuşdur (7, s.704).

Bölgənin ticarət və sənətkarlıq mərkəzlərindən biri olan Ordubad şəhərində də əhalinin sosial tərkibi Naxçıvan şəhərində olduğu kimi idi. Mənbələr Ordubad şəhərində 74 ailənin ali zümrəni təşkil etdiyini təsdiqləyirlər. Əsərindən istifadə etdiyimiz İ.Şopen yazırdı ki, onların 13-ü bəy və sultan, 2-si yüksək rütbəli ruhani, 31-i axund və molla, 21-i seyid, 5-i mirzə, 1-i dərviş, 1-i isə hərbçi ailəsi idi (7, s.482). Ordubad dairəsi üzrə vergidən azad olan sosial təbəqənin sayı aşağıdakı kimi göstərilmişdir: axundlar 3 nəfər, mollalar 75 nəfər, seyidlər 30 nəfər, 1 nəfər xan, bəyzadə və digər əsilzadələr 60 nəfər, xanın nökərləri-10 nəfər (1, s.192). Beləliklə, XIX yüzilliyin əvvəllərində Ordubad dairəsində vergi və mükəlləfiyyətlərdən azad olanların ümumi sayının 179 nəfərə çatdığı məlum olur.

Bölgə Rusiyanın tərkibinə daxil edildikdən sonra Ordubad şəhərinə də rus məmurları gəlir və orada işləyərək yaşamağa başlayırdılar. Onlar burada uzun müddət qaldıqları üçün ailələrini də oraya gətirirdilər. Məhz bu səbəbdən ilhaqdan sonra Ordubad şəhərinin əhalisinin tərkibində az da olsa, rus millətinə mənsub adamlara rast gəlinir. Rusiya ilə birləşdirildikdən sonra Ordubadda olan rus məmuru İ.Şopenin yazdığına görə həmin vaxt şəhərdə 3262 nəfər Azərbaycan türkü yaşayırmış. Burada həmçinin İrandan köçürülən 182 nəfər erməni də məskən salıbmış. Beləliklə, İ.Şopen şəhərdə olarkən orada 3444 nəfər yaşayırmış (7, s.482).

Tarixi mənbələrin müqayisəli təhlili göstərir ki, XIX əsrdə Naxçıvan bölgəsində əhalinin sosial tərkibinin formalaşması burada gedən ictimai-siyasi proseslərlə bağlı olmuşdur. Bölgənin şəhərlərində ali zümrənin nümayəndələri -xanlar, bəylər, axundlar, mollalar, dərvişlər, seyidlər, yüksək hərbi rütbəlilərlə yanaşı, sənətkar və tacir ailələri də yaşayırdılar. «Naxçıvan əyalətinin statistik təsviri» kitabının müəllifi V.Qriqoryevin məlumatlarından aydın olur ki, Ordubad dairəsində 44 nəfər tacir, 120 nəfər sənətkar öz sosial vəziyyətinə görə vergi ödəyənlər qrupuna aid idilər (1, s.192). Bölgənin şəhərlərində kəndli ailələri də yaşayırdılar.

XIX əsrin sonlarında Naxçıvan bölgəsi əhalisinin sosial tərkibində xeyli dəyişiklik olduğu müşahidə edilir. Mənbələrin müqayisəli təhlili dediklərimizi sübut edir. Bu dövrdə Naxçıvan şəhər məktəbinin inspektoru vəzifəsində işləmiş, milliyyətcə rus olan K.Nikitinin «Naxçıvan şəhəri və Naxçıvan qəzası» adlı məqaləsində xeyli sosial xarakterli faktlarla rastlaşırıq. 1882-ci ildə nəşr edilən bu məqalədə müəllifin Naxçıvan şəhər əhalisinin cinsinə, milli təkibinə, dininə və sənətinə görə tərtib etdiyi cədvəl diqqəti cəlb edir. Rus məmuru Nikitin bəhs olunan dövrdə Naxçıvan şəhərində yaşayan əhalinin sosial tərkibinin əsasən məmurlar, dini rütbəlilər və tacirlər olduğunu göstərirdi. Həmin mənbədə bu üç təbəqənin sayı belə göstərilmişdir: məmurlar-409 nəfər, dini rütbəlilər (ruhanilər)-198 nəfər, tacirlər və digərləri-7177 nəfər (kişi-3744 nəfər, qadın-3433 nəfər) (4, s.125). İ.Şopendən fərqli olaraq K.Nikitin bu sosial təbəqələrin ailə tərkibi haqqında heç bir məlumat vermir. Göründüyü kimi Naxçıvanın XIX əsr tarixinə aid olan rus mənbələrində verilən fikir və məlumatlar müxtəlifdir. Bölgə əhalisinin varlı təbəqəsi ilə

kasıb təbəqəsi arasında olan fərqlər özünü qabarıq şəkildə göstərirdi. Bu dövr Qafqaz rus mənbələrində, xüsusən V.Qriqoryevin əsərində (1, s.45) verilən etnoqrafik materiallarda bu məlumatlar öz əksini tapmışdır.

Yeri gəlmişkən bu dövr rus müəlliflərinin böyük əksəriyyəti öz əsər və məqalələrində əsas diqqəti təmsil etdikləri dövlətin-Rusiyanın siyasətinə yönəldirdilər. Müəyyən təhrif və yanlışlıqlara yol verən bu müəlliflər erməni və ermənipərəst adamların verdiyi məlumatlara söykənir və bu əsasda yazılar yazırdılar. Müəlliflərin öz şəxsi ictimai-siyasi maraqlarına xidmət edən bu əsər və məqalələrdə göstərilən fakt və rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz. Yerli xalqın dilini bilməyən rus araşdırıcıları, tədqiqatçıları, tarixçiləri, səyyahları və b. tarixi hadisə və proseslərin əsil mahiyyətini açmağa o qədər də can atmırdılar. Bu da reallıqdan uzaq olan və qeyri-obyektiv elmi əsərlərin yaranmasına gətirib çıxarırdı. Lakin ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna etməklə rus müəlliflərinin bu əsərləri XIX əsr Naxçıvan tarixi üçün qiymətli və əvəzsiz mənbələrdir.

Naxçıvan bölgəsinin sosial-iqtisadi xüsusiyyətlərinin əsas məsələlərindən biri əkilən torpaqların miqdarı ilə bağlıdır. "Naxçıvan əyalətinin statistik təsviri" adlı kitabda bu göstəricilərlə bağlı məlumatlar öz əksini tapmışdır. Həmin məlumatların problem üçün faydalı və əhəmiyyətli olduğunu nəzərə alıb, onların təhlilini məqsədəuyğun hesab edirik. Mənbədə verilən fakt və məlumatlardan aydın olur ki, Naxçıvan əyalətinin ilk dövrlərində Naxçıvan mahalında 11.737, Naxçıvan şəhərində 600 xalvar əkilə bilən torpaq sahəsi var idi. Bu rəqəm Xok mahalı üzrə 1065, Əlincə mahalı üzrə 3395, Dərələyəz mahalının qərb hissəsi üzrə 415, şərq hissəsi üzrə 17.484 (cəmi 17899) idi. Naxçıvan dairəsi üzrə bütövlükdə əkilə bilən torpaqlar 34096 xalvar təşkil edirdi. Əkilə bilən torpaqların miqdarına görə Naxçıvan əyaləti mahallarının payı aşağıdakı kimi idi. Dərələyəz mahalı 52,6%, müvafiq olaraq Naxçıvan mahalı (Naxçıvan şəhəri ilə birgə) 34,4%, Əlincə mahalı 9,9%, Xok mahalı 3,1%. Bu faktlar əkilə bilən torpaqların Naxçıvan dairəsi üzrə qeyri-bərabər yerləşdiyini göstərir (1, s.131-177).

Ordubad dairəsində əkilə bilən torpaqlar mahallar üzrə aşağıdakı kimi yerləşdirilmişdir. Ordubad mahalı 220, şəhər üzrə 150 (cəmi 370), Əylis mahalı üzrə 141,5, Dəstə mahalı üzrə 406,5, Cənənab mahalı üzrə 194, Biləv mahalı üzrə 560 xalvar. Ordubad dairəsi üzrə əkilə bilən torpaqları mahallar üzrə müqayisə etdikdə məlum olur ki, ilk yeri Biləv mahalı (36,8%) tuturdu. Dairə üzrə digər göstəricilər aşagıdakı kimi idi. Dəstə mahalı (26,7%), Ordubad mahalı (şəhərlə birlikdə 24,4 %), Cənənab mahalı (12,7%), Əylis mahalı (9,3%) (1, c.217-233). Tədqiqata cəlb olunan bu mənbənin təhlilindən aydın olur ki, XIX əsrin əvvəllərində Naxçıvan dairəsində əkilə bilən torpaqlar Ordubad dairəsindən 22 dəfədən də artıq olmuşdur. Araşdırmalar və mənbələrin muqayisəli təhlili göstərir ki, Naxçıvan torpaqları xeyli məhsuldar idi. Lakin onların hamısının əkilib-becərilməməsinin müxtəlif səbəbləri-torpaq azlığı, su çatışmazlığı və b. sosial problemlər olmuşdur. Bunlardan birincisi və ən əsası kimi su çatışmazlığını göstərmək lazımdır. Naxçıvan şəhər məktəbinin müfəttişi, rus məmuru K.Nikitinin 1882-ci ildə nəşr etdirdiyi məqaləsində də su çatışmazlığı və bölgədəki torpaqların beşdə bir hissəsinin becərilmədiyi barədə məlumat verilir (4, c.128,134). Ümumiyyətlə, bu rus müəllifinin həmin məqaləsi bölgəyə aid olan sosial-iqtisadi xarakterli faktlarla zəngindir. İ.Şopenin yazdığına görə, "Naxçıvan şəhərində yalnız bazar ətrafındakı sahə rəsmi meydan hesab olunurdu. Digər boş yerlərdə buğda və bu kimi dənli bitkilər, habelə tütün əkilirdi. Burada həmçinin bostan və tərəvəz bitkiləri də əkilirdi " (7, s.479).

Sosial-iqtisadi məsələlərdən bəhs edərkən bölgədə fəaliyyət göstərən sənətkarlar, onların sayı, sənətkarlıq sahələrindən yan keçmək doğru olmaz. İ.Şopen ərazidə kameral təsvir aparılan 1829-1832-ci illərdə sənətkarlıq sahələrini və onların coğrafiyasını, sənətkarların

sayını göstərən cədvəl tərtib etmişdir. Fikrimizcə, bir rus mənbəsi olaraq bu cədvəldən və həmin kitabdakı materiallardan kifayət qədər istifadə olunmalıdır. İ.Şopen bəhs edilən cədvəldə 96 sənətkarlıq sahəsinin siyahısını vermişdir. Mənbə mahallar da daxil olmaqla Naxçıvan və Ordubad şəhərlərində onlardan 50-nə rast gəlindiyini təsdiqləyir. Məlum olduğu kimi bölgədə toxuculuq əsas yer tuturdu. İ.Şopen yazırdı ki, toxucular yerli sənətkarların ən əhəmiyyətli zümrəsini təşkil edirdi. Hər bir ailənin öz dəzgahı var idi və qadınların ev pambıq parçasından əyirdiyi iplikdən bez hazırlanırdı. "Erməni vilayəti"ndə ildə 500000 arşın bez toxuyan 4206 dəzgah var idi (7, s.851-852). İ.Şopen Naxçıvan və Ordubad şəhərlərində gön-dəri emalı haqqında məlumat verir. O, Naxçıvan şəhərində gön-dəri "zavodunun" olmasını göstərir. Rus müəllifi bildirir ki, bu "zavod" elə yerdə qurulmuşdu ki, şəhərdən axan kanal Qaraxanbəyli kəndinə yönəlmişdi. Dərinin yuyulmasında istifadə olunan suyun ümumi kənd kanalına daxil olmaması üçün belə bir variant seçilmişdi. Mənbə Ordubad şəhərində tamamilə fərqli vəziyyət olduğuna şahidlik edir. Ordubadda digər sənət sahələri ilə yanaşı, dabbaqxanalar-dəriaşılayıcı zavodlar da var idi. Sayı 12-yə çatan bu dabbaqxanalar məsuliyyətsizlik və etinasızlıq ucbatından çay üzərində deyil, şəhərin ortasında tikilmişdi. Bu da bağlara axan suyun keyfiyyətinə mənfi təsir edirdi (7, s.857). Burada çoxlu su tələb edən iki ipəksarıma emalatxanası da fəaliyyət göstərirdi. Nəticədə buradan bağlara axan su çirklənirdi (7, s.484).

Bəhs edilən dövrdə Ordubadda boyaqçılıq, dulusçuluq və b. sahələr də geniş yayılmışdı. Ordubad nahiyəsində dərzilər, çəkməçilər, dəmirçilər, dəlləklər, boyaqçılar, dulusçular və b. sənətkarlar da fəaliyyət göstərirdilər. Ordubad qadınları ev şəraitində ipək parça toxumaqla yanaşı, ipək saplar da hazırlayırdılar. Çox ibtidai formada qurulan əl əyirici dəzgahlara saraylarda (anbarlarda–Y.R.) və məişət evlərində də rast gəlinirdi. Ordubadın toxuculuq sahəsində çalışan sənətkarları ustalıq baxımından çox təcrübəli olurdular. Ordubadçayın üzərində bütövlükdə 14 dəyirman qurulduğunu göstərən bir rus mənbəsində yazılırdı ki, bu dəyirmanların hər biri gün ərzində 1 xalvara qədər un üyüdürdü (7, s.484). Ümumiyyətlə, Naxçıvan bölgəsində həm kəndlərdə, həm də şəhərlərdə sənətkarlıqla məşğul olurdular. Şəhərdəki sənətkarlıq sahələri içərisində dərzi, papaqçı, çəkməçi, başmaqçı, zərgər və b. da xüsusi yer tuturdu.

XIX əsrdə Naxçıvan bölgəsində sənətkarlıqdan danışarkən şüşəsazlıq sənəti və şüşə hazırlamaq barədə rus mənbələrində verilən məlumatlar xüsusilə diqqəti cəlb edir. Rus məmuru V.Qriqoryevin verdiyi məlumata əsasən, Ordubad dairəsində Əbülfət Xanın (mənbədə Abdul Fet Xan kimi göstərilir) zamanında Dəstə mahalının Vənənd kəndində şüşə zavodu tikilmiş və sonuncu müharibəyə qədər (1826-1828-ci illər ikinci Rusiya-İran müharibəsi nəzərdə tutulur-Y.R.) fəaliyyət göstərmişdir. İndi burada çalışan ustaların İrana qaçması səbəbi üzündən bu zavod yararsız vəziyyətdədir. Burada şüşə istehsalı üçün lazım olan xammal və material Naxçıvan dairəsinin Əbrəqunis kəndi yaxınlığından gətirilirdi (1, s.225). Yeri gəlmişkən şüşə hazırlamaq o qədər də asan peşə deyildi. Vənənd şüşəsazları ustalıq baxımından çox təcrübəli olmuşlar. Belə qənaətə gəlmək olar ki, bölgənin Vənənd kəndində şüşə istehsal edən sənətkarların iş qabiliyyəti çox yüksək olmuşdur. Tarixi ədəbiyyatda Naxçıvanda adi şüşələrlə yanaşı, rəngli və al-əlvan şüşələr hazırlanması haqqında məlumat vardır. S. Budaqovanın təbirincə «Naxçıvan şəhərində şüşəsazlıq inkişaf etmiş sənət sahələrindən biridir. Burada hasil olunan adi şüşələrlə yanaşı, şəbəkələrin hazırlanmasında istifadə olunan al-əlvan şüşələr də hazırlanırdı. "Mətndarən"da ("Matena daran") saxlanılan mənbələrin birindən məlum olur ki, İrəvan xanlığının hakimi Hüseyn Əli xan Naxçıvana məktub göndərərək Kalbalı xandan xahiş edir ki, İrəvan şəhərində tikdirdiyi hamamın pəncərə şəbəkəsi üçün 400 ədəd müxtəlif rəngli şüşə göndərsin» (8, s.51).

XIX əsr rus mənbələrinin təhlili sübut edir ki, bəhs edilən dövrdə Naxçıvan bölgəsində dərzi, çəkməçi, papaqçı, zərgər, başmaqçı, sərrac, qəssab, keçəçi, dabbaq, bəzzaz, toxucu, misgər, dülgər, kababçı, xarrat və s. sənət və peşə növləri olmuşdur.

Rus məmuru Vasili Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" adlı kitabının üçüncü fəslində bölgədə sosial zümrə və təbəqələrin formalaşması, onların vəziyyəti, Naxçıvan xanlığı İran hakimiyyəti dövründə və işğalçı Rusiyanın tərkibinə daxil olduqdan sonra onun cinayət, dini və hərbi vəziyyəti, sosial və maliyyə məsələlərindən bəhs edilir.

Həmin fəsildəki bölgədə qüvvədə olan cinayət məcəlləsinin maddələri maraq doğuran məsələlərdən biridir. Cinayət işlərinə özu baxan xan bir sıra məsələlərdə baş axundla məsləhətləşirdi. Qatilə müxtəlif növ cəzalar verilirdi. 55-ci səhifədə göstərilir ki, hər hansı bir şəxsi öldürmüş qatil qolu bağlı öldürülənin qohumlarının ixtiyarına verilirdi. Onlar qatili öldürə, yaxud ölmüş şəxsin qan pulunu ödəməyə məcbur edə bilərdilər. Qan pulunun həddinin müəyyən edilməsində sinfilik prinsipi özünü açıq şəkildə göstərirdi. Belə ki, varlı şəxsin qan pulu 800 manat, yoxsul şəxsin qan pulu isə 200 manat idi.

Cinayət məcəlləsində oğurluğa görə də cəza növləri var idi. Bir nəfər oğurluqda tutulduqda möhkəm döyülür və oğurlanmış şeyi və ya onun dəyərini qaytarmağa məcbur edilirdi. Üçüncü dəfə oğurluq edən müqəssirin boynu (balta və xəncərlə) vurulurdu, bəzən isə hündür qüllədən atılırdı.

Cinayət məcəlləsinə görə, vurub başqasının dişini sındırmaq üstündə günahkar şəxs 120 manat (gümüş pulla) və ya 30 tümən cərimə ödəməli idi. 57-ci səhifədə müəllif yazır ki, burun, qulaq və əl kəsmək, yaxud göz çıxarmaq üstündə cinayətkar qan pulu verməli idi. Bəzi hallarda belə cinayət cinayətkarın öz üzərində tətbiq edilirdi.

Dinc vaxtı öz evlərində yaşayan hərbi qulluqçular və əsgərlər bütün vergilərdən azad olunurdu. Onlar kənd təsərrüfatı işləri ilə məşğul olsalar da, müharibə vaxtı xanın sərəncamına gəlirdilər. Bundan əlavə, 30 nəfərlik bir dəstə xanın sarayında gözətçi vəzifəsini yerinə yetirirdi. Xan sarayında iki nazir vəzifəsi var idi. Bu nazirlərdən biri xanın göstəriş və sərəncamlarını yayırdı. O biri nazir isə xəzinə və anbar işlərinə başçılıq edirdi.

Kitabın 58-ci səhifəsində dini idarəçiliyə aid olan məsələlər təsvir olunur. Dini işlərlə əlaqədar Naxçıvanda üç axund olurdu. Burunci Axund və ya Şeyxülislam birbaşa Abbas Mirzə tərəfindən təyin edilirdi. Xana tabe olmayan axundlar dini idarəetmə sahəsində əsas yer tütürdülər. Qazı və peşnamazları isə Müştəhid təyin edirdi.

Məlum olduğu kimi, müəyyən vaxtlarda Naxçıvan bölgəsinin ərazi-inzibati bölgüsündə dəyişikliklər aparılmışdır. Lakin bu dəyişikliklərə baxmayaraq məmurların hüquq və imtiyazları əvvəlki dövrlərdə olduğu kimi qalırdı. Bəhs edilən dövrdə burada mirzəbəyi (bəzi mənbələrdə mirbölük), kəndxuda, əsasbaşı, eşikağası, mirab, cuvar və b. vəzifə sahibləri var idi. Həmin vəzifələrdən biri olan mirzəbəyilər (rus müəllifi V.Qriqoryev onları mirbölüklər də adlandırır) bölgədəki mahalları idarə edirdilər. Onların əsas vəzifəsi kənd təsərrüfatı və əhalidən vergilərin yığılması ilə əlaqədar xanın göstəriş və əmrlərini yerinə yetirməkdən ibarət idi (5, s.322). Kəndlilər arasında vəzifə bölgüsü aparan mirzəbəyilər və ya mirbölüklər onlardan hər şey ala bilərdilər və alırdılar. V.Qriqoryevə görə, "kənd təsərrüfatı işlərinə rəhbərlik etdikləri üçün aldıqları maaşdan başqa hər il 20 tüməndən 50 tümənə qədər pul və 5 xalvardan 10 xalvara qədər taxıl, toy mərasimləri dövründə isə müxtəlif hədiyyələr alırdılar "(1, s.53). Rus müəllifinin bu fikirləri 1836-cı ilə aid olan və Sankt-Peterburqda nəşr olunmuş tarixi mənbənin 322-ci səhifəsində də təsdiq edilir.

Naxçıvan mahallarının bölündüyü kəndləri idarə edənlər kəndxudalar adlanırdı ki, onlar da kənd icmaları tərəfindən seçilirdi. Bütün vergi və mükəlləfiyyətlərdən azad edilən kəndxudalar ildə 10 tümən maaş alırdılar (5, s.322). XIX yüzilliyin əvvəllərinə aid olan bir rus mənbəsində deyilirdi ki, kəndxudalar yeni işçi qüvvəsinin və vergi verən gənclərin siya-

hıya alınması, baş vermiş hadisələr və s. məsələlər haqqında divana məlumat verməli idilər. Əgər bu və ya digər şəxsi işlətmək halları müşahidə edilirdisə, o zaman kəndxuda gümüş pulla yüz manatdan iki yüz manatadək cərimə ödəməli idi (1, s.53-54).

XIX yüzilliyin əvvəllərində Naxçıvan bölgəsində polis idarəsi darğa və əsasbaşı adlandırılan iki nəfərə etibar edilirdi. Qayda-qanun yaradan və gündüz vaxtı bazarlara nəzarət edən darğalara maaş verilmirdi (5, s.322). Xan tərəfindən maaş verilməyən darğalar ərzaq məhsullarını bazardan pulsuz alırdılar. V. Qriqoryev yazırdı ki, maaşın əvəzində darğalara hər dükandan ayda gümüş pulla 15 qəpik almağa icazə verilirdi.

Əsas vəzifələrdən biri hesab olunan digər polis rəisinin-əsasbaşının vəzifəsi şəhəri və bazarı gecə vaxtı qorumaqdan ibarət idi. Əsasbaşı da maaş əvəzinə hər dükandan ayda gümüş pulla 15 qəpik almaq hüququna malik idi. "Naxçıvan əyalətinin statistik təsviri" kitabının 54-cü səhifəsində yazılırdı ki, həmin pulla o, həm də köməkçiləri olan gözətçiləri maddi cəhətdən təmin edirdi.

Xanın ən yaxın köməkçisi olan eşikağası mülki və polis işlərini həyata keçirirdi. Bu və ya digər məsələlərin həlli üçün xanın yanına gələnləri eşikağası qəbul edir və məsləhət bildikdə onları xanın yanına aparırdı. Əldə olan məlumata görə eşikağası mirböluklərin, kəndxudaların və b. vəzifə sahiblərinin də xanın qəbuluna buraxılıb-buraxılmamasını həll edirdi. Onların əksəriyyəti əsasən kəndlərdə baş vermiş hadisələr və yaxud vergilərin toplanmasının vəziyyəti barədə məlumat vermək üçün şəhərə gəlirdilər (1, s.54). 1836-cı ildə Sankt-Peterburqda nəşr edilmiş bir mənbədə yazılırdı ki, eşikağası maaş əvəzinə müxtəlif hədiyyələr alırdı (5, s.323).

Bəhs olunan dövrdə həm şəhərdə, həm də kəndlərdə suyun bölüşdürülməsi mirabların vəzifəsinə daxil idi və bilavasitə onlar bu işə nəzarət edirdilər. Yeri gəlmişkən mirablar, onların vəzifə və səlahiyyətləri barədə ətraflı məlumatlar K. Nikitinin məqaləsində də öz əksini tapmışdır (4, s.119). V.Qriqoryevin məlumatından aydın olur ki, mirablar maaş əvəzinə sudan istifadə edənlərdən 15 batman taxıl və ya yarım batman pambıq alırdılar. XIX əsrin 30-cu illərində nəşr edilmiş bir rus mənbəsində də həmin fikir təsdiqlənir (5, s.323). Naxçıvan çayından çəkilən arxın suyundan istifadə edən ətraf kəndlərin əhalisi miraba "hədiyyə" kimi ya heyvan, ya taxıl və ya başqa məhsullar verirdilər (1, s.55).

Beləliklə, Naxçıvanın sosial vəziyyəti və inkişafı haqqında XIX əsr Qafqaz rus mənbələrində verilən məlumatlar bu gün də öz əhəmiyyətini itirməmişdir.

### *ƏDƏBİYYAT*

1.Григорев В. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 263с.
2.Иванов Р.Н. Нашествие. Москва, 2009, 447с.
3.Нахичеванские рукописные документы XVII-XIX вв. Передняя Азия в документах (Серия памяти Ю.Н.Марра). кн.1, Тбилиси, 1936, 137с.
4.Никитин К. Город Нахичевань и Нахичеванский уездь. Сборник материалов для местностей и племен Кавказа. Тифлис, 1882, 142с.
5.Обозрение Российских владений в статистическом, этнографическом, топографическом и финансовом отнащениях. Часть IV, СПб., 1836, 339с.
6.Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР (отчет о поездке летом 1926 г.). Известия «Азкомстарис» а, вып.4 (тетрадь 2). Баку, 1929, с.87-121.
7.Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, 1231с.
8.Будагова С.И. Историческая география Нахичеванского края. (Второя половина XVIII-первая треть XIX вв.). АКД, Баку, 1996, 96с.

9.Fərzəliyev Ş. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər, s.79-94. Naxçıvan Muxtar Respublikası// Məqalələr toplusu. Bakı, "Elm", 1999, 184 s.

**ЯШАР РАГИМОВ**

**СОЦИАЛЬНОЕ РАЗВИТИЯ НАХЧЫВАНА В XIX ВЕКЕ**

*(из русских источников)*

В статье социальная жизни Нахчывана в XIX века была исследовано на основании работ В.Н. Григорьева, И.Шопена, К. Никитина и других русских авторов. В конце здесь говорилось о проблемах в социальной жизни края в этот период.

**YASHAR RAHIMOV**

**THE SOCIAL GROWH O NAKHCHIVAN IN THE 19TH CENTURY**

*(on the basis of russian sources)*

In this artucle was researched the social life of Nakhchivan in 19th century on the basis of V.Griqoryev, I.Shopen, K.Hikitin and the other Russian autors. In this article have beengiven information too about problem concerning to the social life of the region in this time.

***Rəyçilər: akad.İ.M.Hacıyev, t.e.d.A.C.İsgəndərov.***

***AMEA Naxçıvan bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 17 iyun 2010-cu l tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***